# DÜNYA

DÜNYA MƏKTƏBİ

№ 26 MAY-İYUN 2018






Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. İndiyə qədər yaranmış təməlin üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcəkdir.

Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi.

Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi.

Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq.

Heydər Əliyev
Ulu Öndər




JURNALIN
ÜZ QABIĞINDA
MƏHƏMMƏDƏLİ RƏHİMOV
II sinif

# BU NÖMRƏDƏ №26

Baş redaktor
NAİLƏXANIM İSAYEVA
Baş redaktorun müavini
AFAQ QƏMBƏROVA
Redaksiya heyəti
MƏRUFƏ MƏDƏTLİ
LEYLA CƏBRAYILOVA
RƏNA HƏSƏNOVA
Rəssam
MİR RAFİQ ƏBDÜLRƏHİMOV
Dizayner
ÜLKƏR KƏRİMOVA
Foto
NİGAR FƏRMANOVA
NURANƏ HƏSƏNOVA



8
MƏKTƏB XƏBƏRLƏRİ



35
MƏZUN KAMRAN NAĞIYEVLƏ MÜSAHİBƏ



16-17
ÇƏKİLİŞ MEYDANÇASINDA

MƏKTƏB XƏBƏRLƏRİ 6-11
YAZIÇI İLƏ GÖRÜŞ 12-14
YARIŞ 15
ÇƏKİLİŞ MEYDANÇASINDA 16-17
IB NEWS 18-19
ALİMLƏ GÖRÜŞ 20
IB NEWS 21
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100 22-24
MƏKTƏB XƏBƏRLƏRİ 25
SCHOOL NEWS 26
MƏKTƏB XƏBƏRLƏRİ 27-30
31 AİPS-İN 81-Cİ ÜMUMDÜNYA KONQRESİ
32 MƏKTƏB XƏBƏRLƏRİ
33 VALİDEYN SÖZÜ
34 SON ZƏNG
35 MƏZUN KAMRAN NAĞIYEVLƏ MÜSAHİBƏ
36-41 MƏZUN GECƏSİ
42-43 MƏN RƏQS EDİRƏM
44 “MİLLİ NATİQLİK YARIŞMASI”
45 ELMİ-METODİKİ MƏCLİS
47-50 MƏKTƏBƏQƏDƏR HAZIRLIQ
51 AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ FLASH MOB

# Dünya
## Təhsil Mərkəzi

Yeni qəbul modelinə uyğun

Abituriyent hazırlığı
IX, X, XI siniflər

İbtidai və yuxarı sinif
şagirdlərinə fənlər üzrə dəstək

Məktəbəqədər təhsil
4-5 yaş

IB (İnternational Baccalauerate)
İbtidai (Primary Years Programme)
Orta məktəb (Middle Years Programme)
DP (Diploma Programme)
IELTS, SAT, IB kursları

Respublika və beynəlxalq
olimpiadalara hazırlıq
riyaziyyat, fizika, kimya,
biologiya, informatika



**BEYNƏLXALQ TƏLİM STANDARTLARINA ƏSASLANAN DİL KURSLARI**

İngilis dili • Rus dili
Fransız dili • İspan dili
Alman dili • Çin dili



XƏZƏR UNİVERSİTETİ • DÜNYA TƏHSİL MƏRKƏZİ







## Dərnəklər

NİTQ MƏDƏNİYYƏTİ
XARİCİ DİLDƏ DANIŞIQ
KUNG FU/ TAİ CHİ
(CHİ ENERJİSİ)
MÜALİCƏVİ GİMNASTİKA
ZƏKA OYUNLARI VƏ
MENTAL ARİFMETİKA
EBRU ƏL SƏNƏTLƏRİ
RƏSM
RƏQS
PİANO
GİTARA
ŞAHMAT

FUTBOL
BASKETBOL
ÜZGÜÇÜLÜK
KULİNARİYA
PSİXOLOGİYA
- ÖZÜNƏİNAM VƏ
KONSENTRASİYA
KODİNQ
(PROQRAMLAŞDIRMA)
-ROBOTİX
FOTO-VİDEO ÇƏKİLİŞ
VƏ MONTAJ
KARATE-TAEKVANDO

Ünvan :
Əcəmi Naxçıvani 9
www.dunyaschool.edu.az
info@dunyaschool.edu.az

+994 12 563 59 40 /47/48
+994 55 632 95 28

# DÜNYA MƏKTƏBİNİN SAYTI




XƏZƏR UNİVERSİTETİ




BEYNƏLXALQ BAKALAVR-IB PROQRAMI



DÜNYA BAĞÇASI VƏ MƏKTƏBQƏDƏR HAZIRLIQ



www.dunyaschool.az




# ПЕРСОНАЛЬНАЯ ВЫСТАВКА УЧЕНИЦ 5 КЛАССА









В школе «Дунья» открылась персональная выставка художественных работ учениц 5 класса.У каждой из них свой подход к живописи. Гасанова Айсун, любимая ученица нашего класса,прекрасно владеет кистью. Её работы часто выставляются за пределами республики и всегда получают высокую оценку. Айсун писала в своём дневнике:

> **Сколько я себя помню, я всегда рисовала. Если мне что –то интересно, я сразу представляю , как я это нарисую. Я люблю наблюдать за всем, что происходит вокруг меня. Сразу в голове рождаются идеи, иногда очень веселые и смешные .**
> **Я мечтаю стать художницей. Уверена,что у меня всё получится, потому что со мной рядом те, кого я люблю.**

Айсун дружит со своими одноклассницами. Одной из них является Тагиева Айлин .
Она рассказала о себе: ” У меня много увлечений. Я люблю петь и танцевать. Но больше всего мне доставляет удовольствие рисовать. Рисую ,в основном, пейзажи.
**“Моё любимое время года-весна. Люблю яркие, радостные краски природы”**



На открытие персональной выставки были приглашены родители и председатель союза художников Ибрагимов Агали,который высоко оценил работы девочек .

Одна из участниц выставки, Рамазанова Зарифа , рассказала о себе: “ Я увлекаюсь спортом,интересуюсь историей.Но больше всего я люблю рисовать.На кого-то дождь и осенняя пасмурная погода навевают тоску ,а для меня-это вдохновение.

**Я смешиваю краски и начинаю творить.....”**

Мама Абдуразаг Марьям выразила благодарность за организацию персональной выставки и рассказала,что у Марьям много увлечений.Она любит играть на пианино, с увлечением занимается математикой.Но больше всего любит рисовать .

**Марьям чаще всего изображает море и всё,что связано с ним.**

Классный руководитель рассказал о творческой работе Рзаевой Зейнаб. Талантливая девочка берёт пример со своей мамы, которая прекрасно владеет живописью.

**Её первый рисунок –это букет цветок.** Этот рисунок бережно хранится в её семье . Творческая атмосфера в семье помогает развивать талант девочки.



**ЖЕЛАЕМ ВСЕМ:**

**АЙСУН, ЗАРИФЕ, ЗЕЙНАБ, АЙЛИН, МАРЬЯМ**

**БОЛЬШИХ ТВОРЧЕСКИХ УСПЕХОВ.**

**ЭТИ ДЕВОЧКИ- ГОРДОСТЬ НАШЕЙ ШКОЛЫ!**



# УРОК РИСОВАНИЯ НА ПЛЕНЭРЕ



Свежий воздух, пение птиц,
сияние солнышка!..
Как трудно усидеть за партой
в такие весенние дни!
Поэтому наши ребята и учителя решили
провести урок рисования на открытом
воздухе.

Пленэр (от фр. en plein air - «на открытом воздухе») – термин, обозначающий передачу в картине всего богатства изменений цвета, обусловленных воздействием солнечного света и окружающей атмосферы. Это правдивое отражение красочного богатства натуры в естественных условиях, при активной роли света и воздуха.

Пленэр появился в начале XIX века в Англии благодаря Джону Констеблю и Ричарду Парксу Бонингтону.

Пленэризм становится основой эстетики художников, для которых свет и воздух приобретают самостоятельное значение и чисто живописный интерес.

Живопись при естественном свете была известна давно и использовалась в основном для создания эскизов. Такие художники, как Жан-Батист Камиль Коро, Жан-Франсуа Милле, Камиль Писсарро, Пьер-Огюст Ренуар и Клод Моне внесли свой вклад в становление пленэрной живописи.

Известный художественный критик Ж.-Л. Кастаньяри писал:
**«Они воспринимают природу так, что она получается какой угодно, только не скучной и не банальной.**

**Их живопись полна жизни, стремительна, легка…**

**Они не стремятся к точному воспроизведению,**

**а ограничиваются общим восприятием…
Воспроизводят не сам пейзаж,**

**а впечатление, вызываемое данным пейзажем…»**











# QİTƏLƏRİN MƏDƏNİYYƏT SƏRGİSİ









## AVROPA
## ASİYA
## AMERİKA
## AFRİKA




Azərbaycan və rus bölmələrində şagirdlərin ingilis dili bacarıqlarının genişləndirilməsi ilə yanaşı onlarda dünyagörüşünün formalaşması və müxtəlif xalqların dil və mədəniyyət fərqliliyinin dəyərlərini anlamaq və hörmət etmək məqsədilə məktəbimizdə keçirilən Mədəniyyət sərgisinin nəticələri açıqlandı. *Avropa, Asiya, Amerika* və *Afrika* qitələri haqqında tədqiqat aparan şagird və müəllimlər həmin qitələrin bayramları, tarixi ənənələri, spesifik simvolları, atributları, kitabları və geyimlərini nümayiş etdirərək, mərtəbələrdə hər qitəyə məxsus zəngin informasiya və dekorasiya üzrə yarışdılar. Pedaqoji heyət arasında keçirilən səsvermənin nəticələrinə görə **Afrika I yer, Avropa II** və **Asia III yerləri** bölüşdülər.

*Nərgiz Mahmudzadə*
*İngilis dili departamentinin rəhbəri*







# MAHİR DADAŞOV

## SİNFİN İDARƏ EDİLMƏSİ. BƏDƏN DİLİ TƏHSİL MÜƏSSİSƏSİNDƏ İDARƏETMƏ ÜSULLARI

Bakı Dövlət Universiteti bakalavr və magistratura pillələrini fərqlənmə diplomu ilə bitirdikdən sonra təhsilini Türkiyənin İstanbul Universitetində "Biznes və İdarəetmə" üzrə Magistratura pilləsində davam etdirmişdir.

Azərbaycanda ilk online sertifikat proqramı olan **"Təlimçi Az"** və **"Kor nöqtə"** motivasiya və fərdi inkişaf layihələrinin təsisçisidir.

Mahir Dadaşovun məktəbdə müəllimlərlə apardığı seminarda şagirdlərin diqqətini cəmləndirmək, sinfin idarə edilməsi yollarını araşdırmaq mövzusunda fikir mübadilələri aparıldı.



Şagirdləri
Yol Hərəkəti Qaydaları haqqında maarifləndirmək məqsədi ilə görüş keçirildi. Görüşdə bu sahənin mütəxəssisi Tural Yusifov iştirak edirdi.
O, 10 ildən ar tıqdır ki, Yol Hərəkəti Qaydalarının maarifləndirilməsi ilə məşğuldur. Avtostop layihəsini yaradan və illərlə minlərlə insana Yol Hərəkəti Qaydalarını təbliğ edən mütəxəssis Avtostop layihəsi ilə birgə bir çox sosial layihələrdə də iştirak edib.
Görüş zamanı maraqlı diskussiya aparıldı və layihəçi şagirdlərin suallarını cavablandırdı.

# YOL HƏRƏKƏTİ QAYDALARINA ƏMƏL EDƏK



DJ TURAL

# Prof. YAQUB ƏL ŞARUNİ

## *Uşaq ədəbiyyatı üzrə böyük alim*

**400 -dən çox kitabın müəllifi - yazar, böyük alim, professor Yaqub Əl Şaruni Dünya məktəbi kitabxanasının qonağı oldu.**



**2002-ci ildə Yaqub Əl Şaruninin "Ən Gözəl Hekayələr" adlı kitabı İtaliyada Beynəlxalq Boloniya Uşaq Kitabı sərgisində "Yeni Üfüqlər" mükafatına layiq görülüb. Bu mükafat Asiya, Cənubi Amerika, Afrika və Avstraliya qitələrində ildə bir dəfə bir kitaba verilir.**










Dünya məktəbində məktəblilər yazarı böyük sevği ilə qarşıladılar. Yaqub Əl Şaruni **"Tülkü və canavar", "Hədiyyə"** adlı nağıllarının qısa məzmununu həvəslə danışdı şagirdlərlə maraqlı söhbət etdi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova, Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin rəhbəri Əhməd Sami Elaydi də tədbirin qonağı kimi öz ürək sözlərini dedilər. Şəhla xanım həmçinin Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzi ilə birgə ərsəyə gətirdikləri **"Əsrarəngiz Misir nağılları"** kitabı haqqında məlumat verdi. Sonda Əhməd Sami Elaydi Dünya məktəbi ilə dəfələrlə əməkdaşlıq etdiklərini vurğulayaraq bunu çox yüksək qiymətləndirdiklərini söylədi.

Görüş birgə xatirə şəklillərinin çəkilməsi ilə başa çatdı.

*Mədinə Karahan*
*Kitabxana rəhbəri*



PR. YAQUB ƏL ŞARUNİ

# MARMAR VƏ QUTAN QUŞUNUN ATASI

Marmar şəfqət və ürək ağrısı ilə gəlib qulağıma pıçıldadı:
- Bu qutan quşu yeməyi necə yeyir və balıqları necə ovlayır?”

Mən nəzərlərimi Marmarın barmağıyla işarə etdiyi tərəfə yönəltdim. Quşun uzun və enli dimdiyinin üst hissəsi ortadan sınıb düşmüşdü. Məni dəhşət bürüdü və dedim:
- Bu qutan quşunun yalnız alt dimdiyi ilə balıq tuta bilməsi qeyri- mümkündür...

Marmarın əlindən tutdum və biz zooparkın mühafizəçisi Fəthi əminin yanına getdik. Zoopark Luksor şəhəri yaxınlığında, Nil çayının ortasında çox gözəl bir adada tikilmiş otellərin birinin yanında yerləşirdi.

Fəthi əminin üz cizgilərindən onun qayğısı və şəfqəti açıq-aydın görünürdü.O dedi:
- Bizim zooparkda iki qutan quşu var, birdəfəlik uçub getməsinlər deyə, hər həftə onların lələklərini qayçı ilə qısaldırıq. Beş il əvvəl, günlərin birində bu gördüyünüz qutan quşu uçaraq üzdüyü gölün hasarını aşa bilmişdi, lakin qanadları tab gətirməmiş və quş timsahların yaşadığı gölə düşmüşdü.Timsahlardan biri ona hücüm etmiş, yalnız üst dimdiyinin ön tərəfini tuta bilmişdi. Quş ondan canını qurtarmaq üçün ən böyük sürünən hesab edilən vəhşinin dişləri arasında çilik-çilik olmuş dimdiyinin yarısını elə orada qoyub qaçmışdı. Qorxduğu üçün ucadan səs çıxardaraq yaşadığı gölə qayıtmışdı.Bir neçə baytar həkim sınmış dimdiyı süni dimdiklə əvəz etməyə çalışmışdı, lakin cəhdləri uğursuz olmuşdu.

Marmar Fəthi əmidən heyrət içində soruşdu:
- Bu hadisə beş il bundan əvvəl baş vermişdisə o, indiyədək necə sağ qalıb, yeməyini necə yeyir?

Bu an söhbətə uşaq zooparkının nəzarətçisi müdaxilə etdi:
- Fəthi əmi bu quşu öz övladı kimi çox istəyir... O, hər gün quşa 1,5 kq balıq yedizdirir. O, balığı alt dimdiyin alt hissəsində gördüyümüz torbaya qoyur. Məzuniyyətdə olanda isə hər gün bir ya iki dəfə bizə zəng edir və yalnız iş yoldaşlarından hər hansı birinin quşa gündəlik yeməyini verdiyini biləndən sonra sakitləşir.

Bayaqdan heyranlıqla Fəthi əminin üzünə baxan Marmar gülümsünərək dedi:
- Mən qutan quşu və atası Fəthi əmi ilə birlikdə yadigar şəkil çəkdirmək istəyirəm

Biz onların şəkilini çəkdik. Marmar indi həmin şəkli dostlarına göstərir və deyir:
- İndi mən başa düşürəm ki, mənim ata-anam olduğu kimi bəzi quşların da insanlardan ata-anası ola bilər!

*Ərəb dilindən tərcümə edəni:*
*Fərid Camalov*









# WRITE A BOOK / ÖZ KİTABINI YAZ / ESSAY WRITING / ESSE / VOCABULARY / LÜĞƏT /

Azərbaycan və rus bölmələrində şagirdlərin ingilis dili bacarıqlarının qiymətləndirilməsi məqsədilə şagirdlər arasında keçirilən **Write a Book (Öz kitabını yaz), Essay Writing (Esse) və Vocabulary (Lüğət)** yarışlarının nəticələri açıqlandı. II, III, IV, V, VI sinif şagirdlərinin özlərinin ingilis dilində yazıb hazırladıqları rəngarəng kitablar onların yaradıcılıq, üslub və uşaq təxəyyülünü ingilis dilində ifadə edə bilmək bacarıqlarını üzə çıxardı. VIII siniflər arasındakı esse yarışması şagirdlərin bilik və təcrübələrini işıqlandırdı. Lügət yarışı şagirdlərin sinifdənxaric söz ehtiyatlarını zənginləşdirdi. Qaliblər I, II, III yerləri bölüşərək, diplomlarla təltif olundular.

***Nərgiz Mahmudzadə***
***İngilis dili departamentinin rəhbəri***

# Xoşbəxtliyin Harmoniyası

BƏDİİ FİLM

Filmin ssenarisi
Rejissor Vladimir Mun
Prof. Hamlet İsaxanlı

Bakıda süjet xətti müxtəlif dövrləri əhatə edən **"Xoşbəxtliyin harmoniyası"** adlı film çəkilməkdədir. Filmi məşhur koreyalı rejissor Vladimir Mun lentə alır. Film insan həyatının dərin mənalı anlarından, dünyada hər şeyin - riyaziyyatın, musiqinin,poeziyanın vahid harmoniya çərçivəsində qərar tutduğundan bəhs edir.





Filmin süjet xətti müxtəlif dövrləri əhatə edir. Müasir dövrümüzü işıqlandıran süjet xəttində real obraz və hadisələr əhatə olunur.

Filmin baş qəhrəmanı Azərbaycanda yaşayan ən məşhur riyaziyyatçı – alim, şair filosofdur. Onun kimliyi açıqlanmasa da, digər məşhur personajlar bəllidir. Burada bir çox məşhurların həyatı əks olunur – Leonardo Da Vinçi, İsahak Nyuton, V. Hüqonun “Səfillər” romanının qəhrəmanı Jan Valjan və digərləri...

Çəkilişlər Bakıda və Qəbələdə aparılır. Bəzi səhnələr isə Rusiya, Kanada və digər yerlərdə çəkiləcək.

Film rus və ingilis dillərinə tərcümə olunacaq. Çəkilişlərdə azərbaycanlı peşəkar aktyorlar iştirak edirlər və bütün obrazları onlar canlandırırlar.

Baş rollardan birini isə uzun müddət elan olunan kastinq nəticəsində seçilən Dünya Məktəbinin 7-ci sinif şagirdi Hakan İsaxanlı oynayır.

Hakan dərs əlaçısı olmaqla yanaşı, eyni zamanda, ikinci dərəcəli şahmatçıdır. Şahmata dərin marağı olan Hakan Bakı şəhəri üzrə 2017-ci ilin noyabr ayında keçirilən təsnifat turnirinin qalibidir. Bundan başqa da 2018-ci ilin iyun ayında Xəzər Universiteti Dünya Təhsil Kompleksində keçirilən şahmat seansında ustalara qarşı mübarizədə fərqlənən ən yaxşı şahmatçılardan biridir. Buna görə diplomla təltif olunub. Onun şahmat sahəsində ən böyük uğurlarından biri də budur.



# Show Us YOUR TALENT





## TALENTS SHOW



Khazar University Dunya School MYP and DP students showcased their talents on Friday, June 8 in front of their teachers and parents. Many students feel it is difficult to express their talents in school. Exams and group assignments do not always capture students' unique skills or accurately measure the ability to apply skills to real-world problems. Arranging talent shows or different presentations will develop the students' communication skills.

So, we believe that the participation in the talent show organized by the IB students will help them to show their talent which allows them to develop their self-confidence. We had 3 winners of the show judged by Ms. Zarif, Ms. Turkan, Mr. Giovanni and Mr. Kemran.









THE FIRST PLACE CERTIFICATE WENT TO GRADE 5 STUDENT MARYAM IBRAHIMOVA WITH HER SINGING PERFORMANCE.





THE SECOND PLACE WINNER WAS IBDP1 STUDENT SHAKIR ABDULLAYEV WITH HIS ELECTRIC GUITAR PERFORMANCE.





AND THE THIRD PLACE WAS SHARED BY 2 DANCE PERFORMANCES OF GRADE 5 STUDENTS NAZRIN ABBASBAYLI, NATAVAN RZAYEVA, SAID JAFAROV, JAVID YUSIFLI AND MIRSAID AHADZADA.







# Hacı Zeynalabdin Tağıyev

1823-cü il sentyabrın 25-də Bakıda başmaqçı ailəsində Zeynalabdin adında bir oğlan dünyaya gəldi. İllər keçdi və Zeynalabdin nüfuzlu neft maqnatlarından və mesenatlardan biri kimi adını Azərbaycan tarixinə yazdırdı.

Zeynalabdin Tağıyev 10 yaşından işləməyə başlayıb. Əvvəlcə bənna şagirdi, 15 yaşında bənna, daha sonra podratçı işləyib. O vaxtlar Bakıda neft bumu hökm sürürdü. Zeynalabdin iki şəriki ilə birlikdə Bibiheybətdə torpaq icarəyə götürür. Nə qədər quyu qazsalar da, neft çıxmır ki çıxmır. Şərikləri öz paylarını satırlar və Zeynalabdin torpağın tək sahibinə çevrilir. O, qibtəediləcək inadkarlıqla qazma işlərinə davam edir. Nəhayət quyu fontan vurur. Kasıb başmaqçı Tağının oğlu palçıq daşıyan Zeynalabdin bir anda milyonçu Tağıyevə çevrilir.





**Hacı Zeynalabdin Tağıyevin 180 illik yubileyi** ilə bağlı şagirdlərlə görüş keçirildi. Görüşdə Milli Azərbaycan Tarixi Muzeyinin elmi katibi Fərhad Cabbarov iştirak edirdi. Hacı Zeynalabdin Tağıyev irsinin tədqiqatçısı olan alim şagirdlərlə bu böyük şəxsiyyətin həyatı və fəaliyyəti ilə bağlı fikir mübadiləsi apardı.






The History Competition devoted to **100** Years of Azerbaijanı Democratic Republic arranged by **IB** students took place at Dunya School.
This is important part of Azerbaijani history and we would like to raise awareness among the students of English stream to learn more about their history and appreciate their own culture.

**WINNER HOUSE OF THE HISTORY COMPETITION WAS EINSTEIN HOUSE.**








AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ

# ŞAHMAT SEANSI





Dünya Təhsil Kompleksinin təşkilatçılığı və Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının dəstəyi ilə baş tutan seansda professor Hamlet İsaxanlı , AİJA-nın prezidenti əməkdar jurnalist Eldar İsmayılov, Bakı Şəhər Gənclər və İdman idarəsinin baş məsləhətçisi Salman Əbdülov, Beynəlxalq qrossmeyster, əməkdar məşqçi Azər Mirzoyev, Avropa çempionu,Türkiyə Milli komandasının məşqçisi, Beynəlxalq qrossmeyster Nicat Məmmədov iştirak edirdilər.






Şahmat seansında Türk Dəyanət Liseyinin və 3 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzinin şahmat komandaları iştirak edirdilər. Burada 10 iştirakçı şahmat ustalarına qarşı mübarizədə fərqlənərək baxımlı oyun nümayiş etdirdilər. Onu da qeyd edək ki, 50 taxta üzərində şahmat senansı artıq 3 ildir ki, Dünya Təhsil Kompleksində keçirilir.








**YALNIZ TƏŞƏBBÜSKAR OYUNÇU HÜCUM ETMƏK HÜQUQUNA MALİKDİR.**

*Vilhelm Steynits*



**Seansı FİDE ustası Elşad Rzayev, Xəzər Universitetinin prorektoru İsaxan İsaxanlı, Dünya Təhsil Kompleksinin müəllimi Şəlalə Hüseynova, İdman ustalığına namizəd Nurlan Rzayev apardılar. Seansda fərqlənən şahmatçılar diplomla təltif olundular.**






Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş DÜNYA Məktəbinin Azərbaycan, rus və ingilis bölmələri üzrə yuxarı sinifləri arasında daxili Futbol birinciliyi keçirilmişdir. Yarışın keçirilməsində əsas məqsəd, ilk növbədə, şagirdlərin vətənlərinin tarixinə olan sevgi və ehtiramı nümayiş etdirmək, komandalı oyunlarda onların yardımlaşma, kollektivlik və mübarizlik kimi iradi keyfiyyətlərini inkişaf etdirmək, irəlidən gələn məktəbdən xaric yarışlar üçün məktəbin Futbol heyətinin tərkibini təyin etməkdir. Beləliklə, bir ay davam edən turnirin yekununda Azərbaycan bölmələrinin X - XI sinifləri arasında FİNAL görüşü baş tutmuş və **X sinif** qələbə qazanaraq çempionatın qalibi olmuşdur.

Kənan Daşdəmirov
İdman müəllimi



# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ SİNİFLƏRARASI FUTBOL ÇEMPİONATI



# XEYRİYYƏ LEYKEMİYA İLƏ MÜBARİZƏ YARMARKASI



Dünya Təhsil Kompleksində Leykemiya ilə Mübarizə İctimai Birliyinin iştirakı ilə **1 iyun- Uşaqların Beynəlxalq Müdafiəsi Gününə** həsr olunmuş xeyriyyə aksiyası keçirildi. Leykemiyadan (qan xərçəngi) sağalan uşaqların təqdim etdiyi **"Qəddar Leykoz və Cəsarətli Şahzadə"** adlı tamaşa məktəblilər tərəfindən maraqla izlənildi.















# EXPLORE, DISCOVER and DREAM



Primary school is more or less the first stage of institutional education that children receive, and it is at least the first one that counts.

Primary school graduation is an important passing for both children and parents, it is an ending and a new beginning.

The children move on to new classes and their status in the society is changed.

For PYP 4 students, it has been a long, hard road. But they accomplished their goals, they worked hard and survived. Here is a way ahead for them now.












**Education is not filling a pail, but lighting a fire.**

**Get ready, guys! It is time to EXPLORE, DISCOVER and DREAM!**

*Leyla Eminova*
*PYP Coordinator*





II – III siniflər məktəbin son günlərində yiyələndikləri biliklərin təqdimatını etdilər. Maraqlı süjet xətti quran balacalar səhnədə rejissor, telefonçu, kompyüter mütəxəssisi kimi çıxış edərək təqdimatlar etdilər. İnsan bədəninin orqanları haqqında qurulan məlumat xarakterli tamaşa göstərdilər.













**4-cülər oxuduqları bu illər ərzində əldə etdikləri bilik və bacarıqlarını səhnədən izləyicilərlə paylaşdılar.**

**Onlar böyük həvəs və iftixarla müxtəlif fənlərə -**

**Azərbaycan dili, ingilis dili, həyat bilgisi və riyaziyyata**

**həsr edilmiş tamaşalar nümayiş etdirdilər.**

**Şagirdlər müasir dünyanın hazırki texnologiyalarından tutmuş rəqəmlərin mahiyyətinə, onların fəlsəfi mənasına vararaq son dərəcə zəngin, dolğun məlumatlar verdilər:**

- İnanclara görə 40 ədədi başqa ədədlərə nisbətən çox istifadə olunub:

- İnsan ağlının 40 yaşda ən üstün dərəcəsinə çatması -

- 40 gün halal yeyən insanın qəlbini Allah nurlandırar -

- 40 hədis əzbərləyən və həyatında icra edən
Qiyamət günü fəqih və alim kimi olar -

- Sıfrı ədədə bölsən,
Sıfırdır, yadda saxla.
İnanmırsan buna da
Cavabı vurub yoxla . -

- Məntiq və bəlağət elmindən - mübahisə qabiliyyətini alırıq -

# ЗВЁЗДНЫЙ ЧАС















**На отчётном концерте ребята представили свои таланты, умения и интересы.**

**РИСОВАНИЕ, СПОРТ, МУЗЫКА, ПОЭЗИЯ, ШАХМАТЫ, СПИДКУБИНГ, ТАНЦЫ, ГИМНАСТИКА**

**– было так много увлекательного, что остаётся только пожелать нашим юным талантам продолжать с таким же усердием развиваться и идти к намеченной цели.**

# 4th GRADE GRADUATION CEREMONY



# PYP



You are a spirited and inclusive group of children with a wide range of talents. You have taken the first grade by storm, and you are ready for the adventures and opportunities that the rest of PYP is going to offer. Excellence isn't a skill, it is an attitude. Keep up your good work and continue to strive for perfection! We are so proud of you.

## CONGRATULATIONS TO PYP 1 !










# AİPS-in 81-ci ÜMUMDÜNYA KONQRESİ






**Beynəlxalq İdman Mətbuatı Assosiasiyası (AİPS) Olimpiya Oyunları ilə eyni ildə, 1924-cü il iyulun 2-də Parisdə təsis edilib.**

*Nərgiz Mahmudzadə*
*İngilis dili departamentinin rəhbəri*

Təşkilatın ilk konqresi 29 ölkənin iştirakı ilə 1-3 iyul 1924-cü ildə Parisdə keçirilib. İlk prezidenti Paris Olimpiya Oyunları Mətbuat Xidmətinin rəhbəri *Frans Reyxel* seçilib. İkinci konqres 1928-ci ildə Amsterdamda (Niderland), üçüncüsü 1932-ci ildə Ostenddə (Belçika) baş tutub. Həmin ildən başlayaraq AİPS konqresi hər il təşkil olunub, bir-birinin ardınca Varşavada, Lüksenburqda, Amsterdamda, Brüsseldə, Berlində, Londonda, Romada, Madriddə və başqa şəhərlərdə toplanıb, sonra digər qitələrə də adlayıb. Dünya idman yazarları ali forumunun coğrafiyası Avropa hüdudlarını aşaraq ABŞ, Kanada, Uruqvay, Braziliya, Çin, Koreya, Malayziya, Mərakeş, Qətər, Zair kimi ölkələrədək genişlənib.

Builki 81-ci konqres Avropanın *paytaxtı* sayılan Brüsseldə baş tutdu. Konqresdə qarşıdakı mühüm idman yarışlarında kütləvi informasiya təmsilçilərinin akkreditəsi, onlar üçün nümunəvi iş şəraitinin yaradılması, dopinqlə mübarizə, yarışlar öncəsi gizli sövdələşmələrin qarşısının alınması və başqa bu kimi problemlər müzakirə olundu.

Brüssel görüşləri uğurla başa çatdı. Gələn il konqres yenə də Avropada, dünya olimpizmin paytaxtında - İsveçrənin Lozanna şəhərində təşkil olunacaq.



# SPEAKING /DANIŞIQ/ LISTENING /DİNLƏMƏ/ READING /OXU/ WRITING /YAZI/

Dünya məktəbinin azərbaycan və rus bölmələrində ingilis dili üzrə **Speaking, Listening, Reading, Writing** (danışıq, dinləmə, oxu və yazı) imtahanları başa çatdı. Beynəlxalq standartlara əsaslanaraq şagirdlərin dil bacarıqlarının 4 mərhələ üzrə böyük summativ qiymətləndirilməsi məktəbin İngilis dili ilə Monitoring və qiymətləndirmə departamentləri tərəfindən həyata keçirildi.

Ötən il məktəbə qəbul olunan və cari ildə Support (əlavə ingilis dili) dərsləri keçirilən şagirdlər il ərzində əldə etdikləri bilik və bacarıqlarının qiymətləndirilməsi üçün məktəbin digər şagirdləri ilə bərabər eyni əsasda imtahan verdilər.

Dünya məktəbinə digər özəl və dövlət məktəblərindən 2018-2019 tədris ili üçün müraciət edən yeni şagirdlərə növbəti ildə də İngilis dili departamenti tərəfindən intensiv ingilis dili dərslərinin həyata keçirilməsi nəzərdə tutulur.

*Nərgiz Mahmudzadə*
*İngilis dili departamentinin rəhbəri*







## KAMRAN RZAYEV
### Valideyn

- Mənim üç övladım burada təhsil alır. İlk növbədə, məktəb rəhbərliyinə bizi imtahanlara nəzarətə dəvət etdiyinə görə minnətdarlığımı bildirirəm. İmtahanlar çox uğurlu və şəffaf keçdi.

Mən ilk dəfə idi ki, bir valideyn-nəzarətçi olaraq imtahanlara nəzarət edirdim. Müəllimlər öz işlərinə olduqca peşəkar yanaşır, şagirdlər də diqqətlə sualları cavablandırmağa çalışırdılar.

Ümumiyyətlə, valideyn olaraq məktəbdən razıyam, təhsilin səviyyəsi digər məktəblərlə müqayisədə çox yüksəkdir. Tək mən deyil, bir çoxlarının məktəb haqqında fikirləri yüksəkdir.

Fənn olimpiadalarının keçirilməsi, şagirdlərin dünya olimpiadalarına hazırlanması kimi təşəbbüsləri çox bəyənirəm. Bu səmtdə daha da fəal iştirak etmək yaxşı olardı.

İnanıram ki, Dünya məktəbinin şagirdləri dünya olimpiadalarının qalibləri olacaqlar.







## MƏSMƏ ŞƏRİFOVA
### Valideyn



- İnanıram ki, Dünya məktəbinin şagirdləri dünya olimpiadalarının qalibləri olacaqlar.

Mənim də üç övladım burada təhsil alır. Dərs əlaçısıdırlar. Həm təhsilin səviyyəsini çox bəyənirəm, həm də məktəbdə keçirilən olimpiadalar, təqdimatlarla bağlı tədbirləri təqdirəlayiq hesab edirəm.

İmtahanlara nəzarətçi-valideyn kimi dəvət olunmuşam. Səhərdən imtahan proseslərini izləyirəm. Həm yaradılan şərait, həm də müəllimlərin peşəkar yanaşmalarını çox bəyənirəm. Proses şəffaf və obyektiv aparılır.

Məktəbdəki sistemdən, tədrisdən və təhsilin səviyyəsindən çox razıyam.

# Kainata meydan oxuyan məzunlar...









# Son zəng











**DÜNYA : Kamran, məktəbdən hansı təəssüratlarla ayrılırsan?**

**KAMRAN :** Bu suala dəqiq cavab vermək mənim üçün bir az çətin olacaq. Çünki, təhsil aldığım bu illər ərzində məktəbdə çox hadisələrin şahidi olmuşam. Bəzən üzücü, bəzən də sevindirici məqamlar olsa da, Dünya Məktəbi üçün həmişə darıxacam.

**DÜNYA : Xeyli müddətdir ki, Şagird Birliyinin sədrisən. Bu məsuliyyətli iş səndə hansı xüsusiyyətləri tərbiyə etdi?**

**KAMRAN :** Bu vəzifəni artıq 2 il idi ki, yerinə yetirirdim və düşünürəm ki, həm məktəb həm də gələcək həyatımda mənə böyük təsiri olacaq. Bu illərdə özümdə ən çox insanlarla işləmək bacarığının, səbrin, az zamanda məsələlərə tez həll tapmaq bacarığının çoxaldığını hiss etmişəm.

**DÜNYA : Dünya Məktəbi sənə nələr verdi?**

**KAMRAN :** Ömür boyu sevinclə xatırlayacağım xatirələr, əsl dostlar, həyatı başa düşmək üçün, öyrənmək üçün təməl bilgilər.

**DÜNYA : Necə düşünürsən, indiki qloballaşan dünyada təhsil aldığın məktəb müasir dünya insanı kimi yetişməkdə həyatında necə rol oynadı?**

**KAMRAN :** Mənim fikrimcə təhsil aldığım məktəb təkcə respublikamızda yox, bütün dünyada müasir fikirləri, tədbirləri ilə fərqlənən bir təhsil ocağıdır. Bu məktəb mənim həyata baxışlarımın genişlənməsində, məsələləri diplomatik danışıqlar yolu ilə həll etmək istedadımın inkişafında böyük rol oynayıb.

**DÜNYA : Hansı sahəni seçmisən?**

**KAMRAN :** İqtisadiyyat və Politika.

**DÜNYA : Madam ki, politika?! O zaman dünya politikasının bu günki istiqamətlərinin əsas yönü haqqında fikirlərin maraqlı olardı...**

**KAMRAN :** Dünya politikasının bizə görünən tərəfləri haqqında danışırıqsa, onun bu zamana qədərki ən güclü dövrünü yaşadığını deyə bilərik. Hal-hazırki dövrdə böyük dövlətlərin dünyanı idarə etmək planları çox insana amansız, qəddar təsir bağəşlasa da, çox ağıllı və illərlə düşünülmüş planlardır. Əgər politikal düşünsək, dünyanın ən güclü dövləti mövqeyinin Amerikadan Çinə keçdiyini görə bilərik.

**DÜNYA : Deyirlər, insanların arasındakı münasibətlər də siyasətli, diplomatik olmalıdır. Səmimiyyət və siyasət? – nə dərəcədə uyuşur?**

**KAMRAN :** Əsl siyasətçi dövləti üçün hər şeyi gözə almalıdır. Məncə siyasətdə səmimiyyət olmur.

Dövlət maraqları üçün hərşey!

**DÜNYA : Sənə uğurlar, Kamran!**



Müsahibimiz
məktəbin
Şagird Birliyinin sədri

# Kamran Nağıyevdir.

O, bu il məzun oldu.













# XI BURAXILIŞ

**Bu gün məzun günüdür, məzunum!
Sənin günündür!
Sənin kövrək qədəmlərinin bərkidiyi,
ilk dəfə sinfə girəndə ürkək-ürkək
baxışlarının dəyişib əzmli, inamlı,
iti nəzərlərə çevrildiyi,
balaca əllərinlə valideyninin əllərindən bərk-bərk
yapışıb qopmaq istəmədiyin halda tökdüyün
göz yaşlarının həyəcan, riqqət, sevinc yaşlarına
döndüyü gündür, məzunum!
Necə böyük xəyallar qurdun, arzularla yaşadın,
böyümək istədin...
Bəzən dünyanın mərkəzində gördün özünü, elə bildin meydan
sənindir, dünyanı yenidən quracağını düşündün...**














Gah özünü lider
hiss etdin,
gah hərbçi oldun, gah böyük
loğman olub xəstələrin dərdlərinə
çarə buldun, bəzən də yer üzünün
ən varlı adamına çevrilib insanlara
xeyirxahlıq göstərdin ürəyinin
dərinliklərində...
Hərdən də elmlərin – riyaziyyatın,
kimyanın, fizikanın ənginliklərinə
varıb nələr, nələr yaratmadın...
Gah da səyyah olub macəralı ömür sürdün...
Bəli, bu sənsən məzunum!
Nə qədər nurlusan, ağıllı gözlərin var, necə yaraşıqlısan,
biliklisən, güclüsən, həyat eşqli məzunum!

**Kövrəlmisən... Elə müəllimlərin də kövrəlib, sözləri var sənə...**
**İfadə etmək üçün sözlərin gücünün yetmədiyi arzuları var sənə...**
**Ona görə duruxub qalıblar, səni yeni həyata uğurlamaq üçün ...**















Məktəbin ən dəyərli xüsusiyyətlərindən biri budur ki,  missiyası var – hər bir şagirdə şəxsiyyət kimi dəyər verilir, onlarda müəyyən xüsusiyyətləri araşdırıb tapmağa , kəşf etməyə cəhd edilir.
Bu sabah akademik karyerasını davam edən gənclərimizin həyatında vacib amildir.
Dünya Məktəbində milli abu-hava, ənənəyə sədaqət olmaqla yanaşı, həm də dünyaya açıqlıq var.
İnteqrasiya olunmaq, assimilyasiya olmamaq – biz öz qürurumuzu, milliliyimizi, şəxsiyyətimizi qorumalıyıq.
Mən, ilk növbədə,  müəllimlərə təşəkkür edirəm! Mən bura hədiyyə ilə gəlmişəm – o da vətənimizin bayrağıdır. Bu çox məsuliyyətli hədiyyədir. Harda  olursanız olun, bayrağımızı, ölkəmizi ucaldın.
Başınızı dik tutun, qılıncınız qələm, qalxanınız kitab, elm olsun, əziz məzunlar!

*Kazım Babayev*
*Valideyn*





...Məşhur insanların bioqrafiyasını oxuyarkən bəzən belə bir yazı görürük: - “ filan məktəbi bitirdi...”
Yəni kim məşhur, tanınmış bir məktəbi bitirirsə, artıq onun bioqrafiyasına daxil olur.
Mənim heç bir şübhəm yoxdur ki, siz həyatda özünüzə və Dünya Məktəbinə layiq yer tutacaqsınız. Çünki biz sizi qeyri-adi proqramla, istəklə oxutmağa çalışmışıq. Siz də çalışmısınız və bunun da nəticsi olacaq. Bir zaman sevə-sevə sizin bioqrafiyanızı oxuyanlar Dünya Məktəbini bitirməyinizdən iftixar duyacaqlar, özünüz də fəxr edəcəksiniz.
5-6 yaşında uşaqlar idiniz bura gəlmişdiniz, indi qol-qanad açırsınız. Gələcəyinizi əldə etdiyiniz bilik-bacarıqlarla qurmalısınız.
Hər zaman öyrənməlisən, bilik yolunun sonu yoxdur. İnsan məktəb, ali məktəb həyatında nə qədər çox çalışırsa, ondan sonrakı həyatında daha da çox çalışmalıdır.
Biz sizə necə öyrənməyi öyrətdik. Həyat təhlildən ibarətdir. Gərək hər şeyi təhlil süzgəcindən keçirib həll etməyi öyrənəsiniz. Dünya Məktəbi sizə bunu öyrətdi, analitik düşüncə tərzini formalaşdırmaq üçün sizi hazırladı.
Mən arzu edirəm ki, hər biriniz nəhəng quruculuq işlərinə imza atasınız. Çünki Dünya Məktəbi gəncləri böyük işlər üçün hazırlayır. İnanıram ki, bir gün Dünya Məktəbinin müəllimləri fəxrlə - “O böyük həkim, o böyük siyasətçi, o böyük iş adamı bizim məzundur” – deyəcəklər.

**Hamınızı təbrik edirəm!**

*Professor Hamlet İsaxanlı*













# GRADUATION





**ƏZİZ ÖVLADLARIM,
SİZİN GƏLƏCƏYƏ ATDIĞINIZ
İLK ADDIMINIZ UĞURLU OLSUN!
DÜNYA MƏKTƏBİ SİZİN ÜÇÜN
ÇIRAQ OLSUN!**



9 il öncə mən bu səhnədə məzun valideyni kimi çıxış etmişdim. O zaman qızımın bu məktəbi bitirdiyi günü sevinclə seyr edirdim. Lakin bu dəfə məzunlarımı-şagirdlərimi yola salıram. Sevincimin həddi-hüdudu yoxdur. Bir ananın, bir müəllimin şagirdlərinə, övladlarına arzularını ifadə edə bilməsi üçün gərək dünyanın dahi insanı olasan. Bu arzular tükənməzdir...

Əziz övladlarım, sizin gələcəyə atdığınız ilk addımınız uğurlu olsun! Dünya Məktəbi sizin üçün çıraq olsun! Gələcəyiniz hər zaman işıqlı olsun! Müəllimlərinizin sizə verdiyi biliklər, öyüd-nəsihətlər yolunuza işıq olsun!

*Sədaqət Qasımova*
*XI sinfin sinif rəhbəri*







2018



# MƏN RƏQS EDİRƏM















İbtidai sinif şagirdləri dünya xalqlarının rəngarəng rəqslərini nümayiş etdirdilər. Bir -birindən maraqlı, dolğun və milli adət ənənələri əks etdirən rəqsləri ifa edərkən balacalar zəngin və maraqlı aləminə səyahət etdilər.







Hər xalqın özünəməxsusluğunu əks etdirən milli rəqs geyimləri səhnəni rəngarəng etmişdi. Uşaqlar səylə milli, **türk, türkmən, rus, ukrayna, yəhudi, qaraçı, amerika, fransız, hind, yapon, klaasik və müasir rəqsləri** nümayiş etdirdilər.

Balaca tamaşaçılar da xüsusi həvəslə çıxışçıları izləyib alqışladılar.



# Azerbaijan Public Speaking Competition

12 MAY TARİXİNDƏ "PARK INN" OTELDƏ KEÇİRİLƏN "MİLLİ NATİQLİK YARIŞMASI"-NIN AÇILIŞI TƏDBİRİNDƏ DÖVLƏT NÜMAYƏNDƏLƏRİ, İŞ ADAMLARI, MÜƏLLİMLƏR, TƏLƏBƏ VƏ ŞAGİRDLƏR İŞTİRAK ETDİLƏR.

Artıq 4-cü dəfədir ki, keçirilən yarışmanın məqsədi gənclərdə natiqlik, ünsiyyət və liderlik bacarıqlarını formalaşdırmaq və inkişaf etdirməkdir. Bu məqsədlə proqram bu ildən etibarən İngiltərənin nüfuzlu "The English-Speaking Union" təşkilatı ilə əməkdaşlıq etməyə başlayıb. Əməkdaşlıq çərçivəsində, yarışmanın qalibi olacaq şəxs 1 həftəlik Londona səyahət edəcək və Azərbaycanı 54 ölkə arasında təmsil edərək dünyanın ən güclü natiqi olmaq üçün mübarizə aparacaq.



"MİLLİ NATİQLİK YARIŞMASI"NDA DÜNYA MƏKTƏBİNİN ŞAGİRDLƏRİ NADİR KAZIMOV, RÖYA YUSİFLİ, AYLA RƏCƏBOVA, ÇAPAY QƏHRƏMANOV, GÜNEL ƏLİYEVA İŞTİRAK ETDİLƏR.

ELMİ-METODİKİ MƏCLİS



# BİR SƏS, BİR YANAŞMA, YÜKSƏK KEYFİYYƏT...





**YENİ DƏRS İLİNƏ HAZIRLIQ VƏ CARİ MƏSƏLƏLƏR MÖVZUSUNDA FİKİR MÜBADİLƏLƏRİ EDİLDİ.**

22 iyun 2018-ci il tarixində DÜNYA Məktəbində Elmi-metodiki Məclisin hesabat iclası keçirildi. İclasda 2017-2018-ci tədris ilində məktəbin illik fəaliyyəti barədə hesabat dinlənildi, IX sinif şagirdlərinin əsas təhsili, XI sinif şagirdlərinin tam orta təhsili bitirmələri, məktəbə yeni şagirdlərin qəbulu haqqında müzakirələr aparıldı. Yeni dərs ilinə hazırlıq və cari məsələlər mövzusunda fikir mübadilələri edildi.




**DÜNYA MƏKTƏBİNDƏ DÜNYAYA QOVUŞUN!**

Ünvan:
Bakı şəhəri, Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: 012 563 59 40/47/48
Mob: 070 844 08 88
www.dunyaschool.edu.az
info@dunyaschool.edu.az

# BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞIN SAYTI




bagca.dunyaschool.az












# KİÇİK DÜNYAMIZDAN MÜJDƏLİ XƏBƏRLƏR



BALACA SAKİNLƏR

I SİNFƏ HAZIRLAŞIRLAR...

*AMMA ...*

UŞAQ DÜNYASINDAN, TƏRBİYƏÇİLƏRDƏN AYRILMAQ,

OYUNLARA, OYUNCAQLARA VİDA ETMƏK

HEÇ DƏ ASAN OLMADI...









Dunya school kindergarteners stole the show on
June 8, 2018 for their graduation ceremony.
The parents enjoyed every minute of the show and
celebrated their children's achievements.
They were really proud of their kids who
demonstrated confidence and willingness
on the stage.
May these little stars get smarter day by they and
gain more passion and inspiration while they unlock
the doors of education ahead.











Azərbaycan Xalq Cümhuriyyətinin
100 illiyinə həsr olunmuş

# FLASH MOB



XƏZƏR UNİVERSİTETİ · BAKI · 1991

# XƏZƏR UNİVERSİTETİ

**HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!**

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar,müasir informasiya - kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəltmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

**650-700 BAL TƏHSİL HAQQINDAN TAM AZAD EDİLİR**

| bal | Güzəşt |
|---|---|
| 600-649 | 50 % |
| 550-599 | 40 % |
| 500-549 | 25 % |
| 450-499 | 20% |
| 400-449 | 15 % |
| 350-399 | 10% |

**Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən? Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

**1 qrup**

Kompüter elmləri
Kompüter mühəndisliyi
Neft-qaz mühəndisliyi
İnşaat mühəndisliyi
Elektronika, Telekommmunikasiya mühəndisliyi
Kimya mühəndisliyi
Mexanika mühəndisliyi
Riyaziyyat və İnformatika mühəndisliyi
Fizika mühəndisliyi

**2 qrup**

Mühasibat uçotu və audit
Maliyyə
İqtisadiyyat
Menecment
Marketinq
Biznesin idarə edilməsi
Turizm və otelçilik
Regionşünaslıq (Avropa)
Beynəlxalq münasibətlər
Coğrafiya müəllimliyi

**3 qrup**

İngilis dili və ədəbiyyatı
Azərbaycan dili və ədəbiyyatı
Tərcümə (ingilis dili)
Politologiya
İngilis dili müəllimliyi
Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
İbtidai sinif müəllimliyi
Tarix müəllimliyi

**4 qrup**

Kimya müəllimliyi
Biologiya müəllimliyi
Kimya və biologiya müəllimliyi
Psixologiya

**5 qrup**

Dizayn